

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 234 (20.888)

*13 dekabr 2013-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik

*Rəsmi xronika*

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından on il keçir.

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət himni səsləndi.

Dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

* * *

Dekabrın 12-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ümummilli liderin vəfatı günü ilə olaqədar ehsan verilmişdir.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva, ölkəmizin bütün şəhər və rayonlarından ictimaiyyətin nümayəndələri mərasimdə iştirak etmişlər.

Ehsan mərasimi Qurani-Kərimdən ayələrin oxunması ilə başladı.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.



## C.A.Rüstəmovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cəlil Abbas oğlu Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 11 dekabr 2013-cü il*

## K.R.Əhmədova "Əməkdar incəsənət xadimi" fəxri adının verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında musiqi sahəsindəki səmərəli fəaliyyətinə görə Kamal Rüstəm oğlu Əhmədova **"Əməkdar incəsənət xadimi"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 11 dekabr 2013-cü il*

# Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir





Dekabrın 12-də müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da böyük ehtiramla yad edilmiş, Naxçıvan şəhərinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi minlərlə insanın ziyarətgahına çevrilmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə tər gül dəstəsi qoymuş, müstəqil Azərbaycanın qurucusunun xatirəsini dərin ehtiramla yad etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin kollektivləri, hərbi hissələrin, ictimaiyyətin nümayəndələri, minlərlə insan ulu öndərin əziz xatirəsinə sonsuz məhəbbətin ifadəsi olaraq Onun abidəsini ziyarət etmişlər.

Azərbaycanın ən yeni tarixinin hər bir məqamı ümummilli lider Heydər Əliyevin adı, həyatı və siyasi fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Ulu öndər Heydər Əliyev elə bir şəxsiyyətdir ki, zaman keçdikcə, illər ötdükcə onun böyüklüyünü daha dərindən dərk edirik. Ötən hər gün böyük öndəri bizə daha da yaxınlaşdırır, ümummilli liderimizin əbədiyaşar bir şəxsiyyət olduğunu bir daha təsdiq edir.

İnkişaf, milli birlik və həmrəylik, güclü dövlət və müstəqillik ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin əsas qayəsini təşkil edirdi. ***"Mən çox sınaqlardan keçmiş bir adamam və həyatımı da özümə yox, xalqıma həsr etmişəm"***, – deyən ümummilli liderin ömür yolu əsrlərə sığmayan bir epoxadır və bu epoxanın hər bir anı Azərbaycan xalqına və dövlətçiliyinə xidmətdən keçir.

Azərbaycan tarixinin 1969-1987-ci illərdəki inkişaf və tərəqqi dövrü, 1993-2003-cü illərdə müstəqilliyin möhkəmlənməsi naminə göstərilən siyasi iradə və dövlətçilik təcrübəsi, zəngin irsə malik siyasi məktəb və gələcəyə hesablanmış sosial-iqtisadi islahatlar ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi siyasətçinin Azərbaycana rəhbərlik etdiyi dövrdə yaratdığı sosial-iqtisadi və siyasi baza Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, xalqın vahid ideologiya – vətən üçün yaşamaq, vətən üçün fəaliyyət göstərmək fəlsəfəsi ətrafında birləşməsində əsas stimul olmuşdur.

Müdriklərin fikrinə görə, "Xalqın etimadını qazanan lider güclü dövlətin yeganə qarantıdır". Bütün siyasi fəaliyyəti Vətənə və xalqına xidmət nümunəsi olan, ***"Xalq mənim dayağım, gücüm və inamımdır"***, – deyən ulu öndər Heydər Əliyevin əsas dayağı da məhz qədirbilən xalqı olmuşdur. Dahi şəxsiyyət pak əməlləri, parlaq ideyaları, məqsədyönlü fəaliyyəti ilə hələ sağlığında xalqının ümummilli lideri adını qazanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Tarixdə elə şəxsiyyətlər var ki, onların həyatından danışmaq üçün təmsil etdikləri ölkələrin və xalqların həyatından danışmaq lazım gəlir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev belə şəxsiyyətlərdəndir. Onun mənalı həyatı müstəqil Azərbaycanın siyasi bioqrafiyasına, tərcümeyi-halına çevrilmişdir. Bu gün dünyanın istənilən ölkəsində "Azərbaycan" deyərkən Heydər Əliyev, Heydər Əliyev deyərkən "Azərbaycan" başa düşülür. Nə üçün? Ona görə ki, ulu öndər Heydər Əliyev qədər öz həyatını Azərbaycana həsr edən, Azərbaycançılıq uğrunda, dövlətimizin müstəqilliyi yolunda canından keçməyə hazır olan ikinci bir dövlət xadimi, şəxsiyyət yoxdur".***

Ümummilli lider Azərbaycan dövlətini yeni inkişaf müstəvisinə çıxaran tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Ötən əsrin 90-cı illərində – ölkəmiz üçün olduqca mürəkkəb və gərgin bir dövrdə öz xilaskarlıq və quruculuq missiyasını şərəflə yerinə yetirən ulu öndərimiz qısa zaman kəsiyində ölkədə baş alıb gedən xaos və anarxiyaya son qoymuş, uğurlu sosial-iqtisadi islahatlar həyata keçirməklə Azərbaycanı dünyanın hərtərəfli inkişaf edən dövlətləri sırasına çıxarmışdır. Bu gün hər bir azərbaycanlı fəxrlə deyir ki, sürətli sosial-iqtisadi inkişaf dinamikasına malik olan müstəqil Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin şah əsəridir.

Ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, ulu öndərə məhəbbətlərini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

*Ardı 2-ci səhifədə*

Xalqımız bütün varlığı ilə inanır ki, bu gün ölkədə həyata keçirilən siyasi xətt – Heydər Əliyev yolu Azərbaycanı daha böyük zəfərlərə qovuşduracaqdır. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında bu yolla inamla irəliləyir, regionda və beynəlxalq aləmdə böyük iqtisadi və siyasi uğurlara imza atır.

Heydər Əliyev ideyaları, Heydər Əliyev yolu Naxçıvanda da yeni inkişaf erasının başlanmasına rəvac verib. Muxtar respublikamızda bu siyasətin uğurla davam etdirilməsi nəticəsində əsl intibaha nail olunmuş, quruculuq işləri geniş vüsət almış, iqtisadiyyat dinamik inkişaf etmiş, infrastruktur yenilənmiş, sosial proqramlar qəbul edilərək icra olunmuş, enerji və ərzaq təhlükəsizliyi təmin edilmişdir. Qazanılan bütün bu uğurların başlanğıcı, təbii ki, dahi şəxsiyyətin ideya və amallarının dönmədən həyata keçirilməsinin nəticəsi və Heydər Əliyev siyasi xəttinə sədaqətin təntənəsidir.

Ümummilli liderimiz Heydər Əliyevin xalq üçün, vətən üçün etdiklərini adi insan təfəkkürünə sığışdırmaq mümkün deyil. Ulu öndərin həyatı və siyasi fəaliyyəti Azərbaycan xalqının tarixi irsidir. Bu irsi öyrənərək ondan doğma Vətənimiz Azərbaycanın rifahı naminə yararlanmaq isə hər bir vətəndaşın, öz torpağını və millətini sevən hər bir azərbaycanlının mənəvi borcudur. Çünki ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir".***

Həmin gün Naxçıvan şəhərində olduğu kimi, muxtar respublikamızın bütün rayon mərkəzlərində də ümummilli liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi muxtar respublikamızın bütün rayonlarında ehtiramla anılmışdır

## *Şərur rayonu*



Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Şərur rayonunda genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri həyata keçirilmiş, ulu öndərimizin bilavasitə rəhbərliyi və daimi nəzarəti ilə yaradılan Arpaçay Su Anbarı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan yaratmışdır. Rayon sakinləri milli liderimizin rəhbərliyi ilə həyata keçirilən bu tədbirləri bu gün minnətdarlıq hissi ilə xatırlayırlar. Ümummilli lider Heydər Əliyev muxtar respublikaya səfəri çərçivəsində Şərur rayonunda olarkən demişdir: "***Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz".***

Rayon sakinləri ulu öndərin bu tövsiyələrini layiqincə yerinə yetirməyə çalışırlar. Rayonda bir sıra infrastruktur layihələri həyata keçirilmiş, onlarla müasir bina inşa olunmuşdur. Demək olar ki, rayonun bütün idarə, müəssisə və təşkilatları müasir binalarda fəaliyyət göstərir. Bu isə torpaq qədri bilən, yurd təəssüblü şərurlulara yüksək səviyyədə çalışmağa imkan verir.

Bu gün ümummilli liderimizin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Şərur inkişafın yeni mərhələsinə qədəm qoymuşdur.

Dahi rəhbərin anım günündə şərurlular ulu öndər Heydər Əliyevin əziz xatirəsini böyük ehtiramla yad etmişlər. Dekabrın 12-də Şərur şəhərinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan heykəli minlərlə insanın ziyarətgahına çevrilmişdir.

## *Culfa rayonu*

***Muxtar respublikamızın bütün bölgələri kimi, Culfa rayonunun sakinləri də ümummilli liderin anım günündə Onun əziz xatirəsini böyük ehtiramla yad edirlər. Rayonun hansı səmtinə üz tutsan, orada dahi rəhbərin ideyalarının uğurla davam etdirildiyinin şahidi olarsan.***



Culfa rayonu istər tarixi-mədəni, istərsə də strateji baxımdan regionun mühüm əhəmiyyət kəsb edən ərazilərindən biridir. Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə digər rayonlar kimi, Culfa rayonunun da sosial, iqtisadi, mədəni yüksəlişinə daim qayğı ilə yanaşmışdır.

Heydər Əliyev siyasətinin muxtar respublikamızda uğurla davam etdirilməsinin nəticəsidir ki, son 18 il ərzində Culfa rayonunun mövcud 24 kəndindən 13-də kompleks quruculuq işləri aparılmış, rayonda onlarla məktəb binası, səhiyyə ocağı, mədəniyyət obyekti tikilib istifadəyə verilmişdir. Culfa şəhəri aparılan abadlıq-quruculuq tədbirləri nəticəsində gözəl bir rayon mərkəzinə çevrilmişdir. Bir-birindən yaraşıqlı inzibati və yaşayış binaları, parklar, abad prospekt və küçələr, həm şəhərdaxili, həm də rayonun kəndləri arasında salınmış asfalt yollar sakinlərin rahatlığına hərtərəfli şərait yaratmışdır.

Təbii ki, görülən işlər Culfa rayonunun sakinləri tərəfindən minnətdarlıqla qarşılanır, xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi dərin hörmət hissi ilə yad edilir. Elə bu hörmətin, böyük liderə olan ehtiramın ifadəsidir ki, rayon sakinləri ulu öndərin anım günündə bir daha dahi rəhbərin əziz xatirəsini yad etmiş, Onun Culfa Rayon İcra Hakimiyyətinin qarşısındakı büstünü ziyarət etmişlər.

* * *

## *Babək rayonu*



***Yarandığı dövrdən ötən müddət ərzində Babək rayonu böyük inkişaf yolu keçmiş, Heydər Əliyev quruculuq xəttinin yaradıcı gücünün konkret bir regionda əyani ifadəsinə çevrilmişdir.***

Babək rayonunun təşkil olunması ideyası ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, Azərbaycanın dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi ortaya çıxmışdır. Həmin dövrdə aparılan quruculuq xətti regionları da əhatə etmiş, Naxçıvan rayonunun tərkibindən ayrılmaqla yeni rayonun yaradılması qərara alınmışdır. 1978-ci il oktyabrın 23-də təşkil olunmuş yeni rayona mərkəzi hakimiyyətin iradəsinin əksi olaraq Babək adının verilməsi ulu öndərimizin qətiyyətinin, daim Azərbaycançılıq mövqeyində dayanmasının, milli yaddaşın bərpası istiqamətində həyata keçirdiyi taleyüklü tədbirlərin nəticəsi idi.

Dekabrın 12-də ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi muxtar respublikamızın hər yerində olduğu kimi, Babək rayonunda da böyük ehtiramla yad edilmişdir. Həmin gün rayon mərkəzinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi minlərlə insanın ziyarətgahına çevrilmişdir. Rayon sakinləri abidə önünə tər gül dəstələri qoymuş, müstəqil Azərbaycanın qurucusunun xatirəsini dərin ehtiramla yad etmiş, böyük şəxsiyyətin ölməz xatirəsi önündə baş əymişlər. İdarə, müəssisə və təşkilatların, məktəblərin kollektivləri, ictimaiyyətin nümayəndələri, bir sözlə, minlərlə insan ulu öndərin əziz xatirəsinə sonsuz məhəbbətlərini ifadə etmişlər.

## *Şahbuz rayonu*



Xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf və tərəqqi siyasətinin bəhrələri yurdumuzun hər yerində olduğu kimi, Şahbuz rayonunda da öz möhtəşəmliyi ilə görünməkdədir. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Şahbuzda iqtisadiyyatın inkişaf etdirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüş, müstəqillik illərində ulu öndərin uzaqgörən siyasəti nəticəsində bu rayonun da həyatında yeni mərhələ – inkişaf və tərəqqi dövrü başlanmışdır. Şahbuzun hər yerində, onun ən ucqar yaşayış məntəqəsində artıq hər keçən gün ulu öndər Heydər Əliyevin xalqımıza miras qoyduğu ən böyük sərvətin – müstəqilliyin bəhrələri açıq-aydın görünməkdədir. İndi rayonda aparılan hər quruculuq tədbiri, çəkilən hər yeni yol, abadlaşan hər bir kənd ulu öndərin reallaşan arzularının, onun gerçəkləşən xalqa fədakar xidmət ideallarının bir təcəssümüdür. Şahbuzlular ulu öndərin xalqımız qarşısındakı misilsiz xidmətlərinin, ölkəmizin, muxtar respublikamızın inkişafı naminə gərgin əməyinin bəhrələrini daim öz həyatlarında görməkdədirlər.

Dünən – 12 dekabr, xalqımızın ümummilli liderinin əbədiyyətə qovuşduğu gün dahi rəhbərin xatirəsi Şahbuzda da ehtiramla yad edilmişdir. Anım günündə rayon sakinləri ulu öndərə öz dərin ehtiramlarını bir daha bildirmək üçün görkəmli dövlət xadiminin Şahbuz Rayon İcra Hakimiyyəti önündə ucaldılmış büstünü ziyarət etmişlər. İnsanlar öz dahi rəhbərinin xatirəsini dərin ehtiramla yad edərək bir daha ulu öndərin mənalı ömrü boyu Vətəninə xidmətlərini, xalqına sədaqətini və doğma torpağına sevgisini minnətdarlıqla anmışlar.

* * *

## *Ordubad rayonu*

Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunda xalqımızın böyük oğlunun yadigarları saymaqla qurtaran deyil. Rayon iqtisadiyyatının inkişaf etdirilməsi, bölgədə yeni iş yerlərinin yaradılması, insan amilinə xidmət edən digər məqsədyönlü tədbirlərin həyata keçirilməsi ümummilli liderin Azərbaycana rəhbərliyinin hər iki dövründə diqqətdə saxlanılmışdır. Zəngin fauna və floraya, tarixi-mədəni abidələrə malik olan Ordubad şəhərinin əvvəlcə qoruq, sonra rayon ərazisinin yasaqlıq elan edilməsi, müstəqillik illərində burada milli park yaradılması, yeni istehsal müəssisələrinin işə salınması dahi şəxsiyyətin bu bölgəyə böyük qayğısının ifadəsi kimi indi də yaddaşlarda yaşayır. Mənsub olduğu xalqı ürəkdən sevən, onun layiq olduğu səviyyədə yaşamasını təmin edən, insanların problemlərinə həssaslıqla yanaşan dahi şəxsiyyət Heydər Əliyev ordubadlıların da qəlbində əbədi yaşayır. Ümummilli liderin əziz xatirəsi anım günündə Ordubad rayonu sakinləri tərəfindən böyük minnətdarlıqla bir daha yad edilib.

Vurğulamaq gərəkdir ki, bir vaxtlar bu qədim yurd yeri də gözdənuzaq, könüldəniraq dövrlər yaşayıb. Digər bölgələrimiz kimi, ümummilli liderimizin səyləri hesabına Ordubad da sürətli inkişaf yoluna qədəm qoyub. Bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, bu yaşayış məntəqələrində tikinti-quruculuq işləri geniş vüsət alıb. Yeni tikililər qədim yurd yerinə yeni görkəm gətirib. Aparılan məqsədyönlü tədbirlər insanların həyata baxışlarını da dəyişib. Bir sözlə, Ordubad tarixiliyini saxlamaqla ən abad və füsunkar bir yurd yerinə çevrilib. Elə başa vurmaqda olduğumuz ilə nəzər salsaq, bölgədə bir sıra böyük layihələrin gerçəkləşdirildiyini, bu hesaba Ordubadın müasir və abad bir rayona çevrildiyini görərik. Rayonun simasının əsaslı surətdə dəyişməsində tikinti-quruculuq tədbirləri başlıca rol oynayıb. Ənənəvi olaraq cari ildə də belə işlər rayon mərkəzi ilə yanaşı, kənd yaşayış məntəqələrində də aparılıb.

Ordubadlılar dərindən dərk edirlər ki, bütün bunlar muxtar respublikada Heydər Əliyev yoluna sədaqətin ifadəsi hesabınadır. Odur ki, xalqımızın dahi oğlu rayon sakinləri tərəfindən daim minnətdarlıqla, böyük sevgi hissləri ilə xatırlanır, ümummilli liderimizin xatirəsi əziz tutulur. Bu hisslər dünən bir daha yaşanıb. Ulu öndərin anım günündə rayon sakinləri görkəmli dövlət xadimi Heydər Əliyevin rayon mərkəzindəki abidəsi önünə gələrək ona sevgi və ehtiramlarını bildiriblər.

## *Kəngərli rayonu*

Dünən xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin əziz xatirəsi Kəngərli rayonunda da hörmət və ehtiramla anılmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin anım günü ilə əlaqədar olaraq keçirilən mərasimdə rayon sakinləri ulu öndərin əziz xatirəsini ehtiramla yad etməklə dahi şəxsiyyətə olan hörmət və ehtiramlarını bir daha nümayiş etdirmişlər.

Həmin gün xalqımızın böyük oğlunun rayon mərkəzində ucaldılmış abidəsi minlərlə insanın axın etdiyi məkana çevrilmişdir.

*Ardı 3-cü səhifədə*

## Sədərək rayonu

***Sədərək rayonu ərazisində bir çox yaşayış massivlərinin salınması, bu rayonun yaradılması, inkişafı və tərəqqisi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün rayon mərkəzi olan Heydərabad qəsəbəsinin əsası hələ ümummilli liderin Azərbaycana birinci rəhbərliyi dövründə qoyulmuşdur.***

XX əsrin 90-cı illərinin əvvəllərində Sədərək Ermənistan tərəfindən hücumlara məruz qalmışdır. Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhəd kəndi olan, Naxçıvanın qala qapısı sayılan Sədərəkdə Azərbaycanın ərazi bütövlüyü uğrunda 1990-1993-cü illərdə ağır döyüşlər aparılmışdır. O zaman buradakı ağır vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu təcavüzün və işğalın qarşısının alınması üçün misilsiz xidmətlər göstərmiş, dünyanın diqqətini burada baş verən hadisələrə yönəltmişdir. Ümummilli lider Heydər Əliyev Sədərəyi "Naxçıvanın qeyrət qalası" adlandıraraq demişdir: ***"Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür. Sədərək kəndində vəziyyət tamam başqadır. Burada əsl müharibə gedib, atışmalar olub".***

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə Sədərək rayonunun erməni işğalından qorunması, bölgənin sosial infrastrukturunun möhkəmləndirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, sərhəd bölgəsinin sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Araz çayı üzərində Türkiyə ilə Azərbaycanı birləşdirən Sədərək-Dilucu körpüsü tikilmiş, Türkiyənin həmsərhəd vilayətlərindən Sədərəyə elektrik xətti çəkilmişdir.

Ümummilli liderin müəyyənləşdirdiyi tarixi inkişaf konsepsiyasını muxtar respublikamızda uğurla həyata keçirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ulu öndərimizin tövsiyələrinə uyğun olaraq, bu tarixi və strateji Azərbaycan rayonuna xüsusi diqqət yetirir. Sədərəklilər bu gün ümummilli liderin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla anırlar. Onlar qürur duyurlar ki, məhz bu rayonun mərkəzi Azərbaycan xalqının və ümumilikdə, bütün türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyır.

Dünən Sədərək rayonunda da rayon ictimaiyyətinin nümayəndələri ulu öndərin Heydərabad qəsəbəsinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət etmişlər.

**Xəbərlər şöbəsi**

*Azərbaycanın özü qədər əbədi*

# Ulu öndər Heydər Əliyevin dövlətçilik təlimində Azərbaycan tarixi məsələləri

***Azərbaycan xalqının tarixi taleyində elə bir əlamətdar hadisə, ictimai-siyasi, iqtisadi və mədəni həyatın elə bir vacib sahəsi yoxdur ki, orada ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olmasın. Azərbaycan elminin müxtəlif sahələrinin inkişafında bilavasitə maraqlı olan ümummilli liderimiz Heydər Əliyev hər bir elm sahəsinə, elm adamına həssas münasibəti, xüsusi qayğısı ilə hər zaman xatırlanır. Ümummilli liderimizi ən çox qayğılandıran və düşündürən elm sahələrindən biri qədim dövlətçilik ənənələrinə malik Azərbaycanımızın çoxminillik tarixi olmuşdur. O, bu sahədəki problemlərin aradan qaldırılması, milli tariximizin yenidən tədqiq edilib təbliğ olunması üçün dəfələrlə qabaqcıl tarixçi alimlərlə görüşlər keçirmiş, bu sahənin inkişafına dövlət qayğısının gücləndirilməsini təmin etmişdir.***

Məhz milli tariximizə olan doğma münasibət Onu bu ixtisas üzrə təhsil almağa sövq etmişdir. Təsadüfi deyildir ki, ümummilli lider Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tarix fakültəsinə daxil olmuş və 1957-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurmuşdur. Onun əmək fəaliyyətinə başladığı ilk iş yeri də tariximizin keşiyində dayanmalı olan Azərbaycan Tarixi Muzeyi olmuşdur. Vətən tarixinin keşikçisi kimi fəaliyyətə başlayan bu böyük şəxsiyyət sonralar bütün Vətənin mühafizəçisinə, xilaskarına çevriləcəkdi.

Dövlət təhlükəsizlik orqanlarında mühüm vəzifələrdə təmsil olunduğu dövrlərdə də ulu öndər Azərbaycan tarixinin aktual və problemli məsələlərini daim diqqət mərkəzində saxlamış, bu sahədəki boşluqların tamamlanmasına çalışmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk illərdən həyata keçirilən tədbirlərdən biri maddi-mədəni irsimiz olan tarixi abidələrimizin mühafizəsi və bərpası istiqamətində görülən işlərdir. O, bunun üçün mühüm qərarlar qəbul edərək tarixi abidələrimizin öyrənilməsi və təbliği işini böyük cəsarətlə həyata keçirirdi. Məhz dahi rəhbər Heydər Əliyevin böyük xidmətlərinin nəticəsi idi ki, XX əsrin 70-ci illərində "abidələr tariximizdir" fikrinin mətbuatda, ictimai-siyasi həyatda geniş təbliğ edilməsinə başlanılmışdır. Respublikamızın görkəmli tarixçi alimləri və mədəniyyət işçilərindən ibarət komissiyalar yaradılmış, onlara tarixi-mədəni irsimizin yenidən tədqiq edilərək elmi dövriyyəyə daxil edilməsi tapşırığı verilmişdir. Azərbaycan xalqının mədəni irsinin qorunması, bərpası və təbliği məqsədilə təkcə 1969-1973-cü illərdə 15 qərar və sərəncam imzalanmışdır.

Bu qərarlara uyğun olaraq, Azərbaycan ərazisindəki tarix və memarlıq abidələrinin uçotu dəqiqləşdirilmiş, onlar yenidən qeydiyyata alınmışdı.

Tarixi abidələrimiz tədqiq olunub öyrənildikdən sonra onların təbliği işinin həyata keçirilməsi üçün muzeylərimizin fəaliyyətinin gücləndirilməsi və həmin tarixi eksponatların muzeylərdə nümayişi məqsədilə mühüm qərarlar qəbul edilmişdir. Azərbaycan KP MK Bürosunun 1970-ci il 30 sentyabr tarixli iclasında Azərbaycan tarixini və mədəniyyətini SSRİ-nin əsas muzeyləri vasitəsilə təbliğ etmək barədə qərar qəbul olunmuş, eyni zamanda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosunun 1972-ci ildə keçirilmiş iclasında qəbul edilən qərarla Azərbaycan Tarixi Muzeyinin 50 illiyi qeyd olunmuşdur.

Totalitar rejimin sərt qanunlarına baxmayaraq, xalqımızın tarixi yaddaşının ən tutarlı möhürləri olan abidələrimizin bərpası və mühafizəsi istiqamətində atılmış cəsarətli addımlar bu sahədəki dağıntı və unudulmaların qarşısını alırdı. Dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx mağarasının, açıq səma altında muzey olan Qobustanın tədqiqinə, alban məbədlərinin qorunmasına diqqət artırılmış, Beyləqan, Gəncə, Şamaxı və Şəmkirdəki tarixi abidələr, Bakı şəhərindəki Qız qalası, Naxçıvandakı bir çox abidələr, o cümlədən Qarabağlar türbəsi, Bərdədə XVI əsrə aid minarə, Ağdamda Xaçın Dorbatlı kəndi yaxınlığında XIV əsrə aid məqbərə, Salyan rayonunda Pirsaat çayının sahilindəki XIII-XV əsrlərə aid Xanəgah kompleksi, Şəki xan sarayı, Şirvanşahlar sarayı, Atəşgah və onlarla başqa abidələr bərpa edilmişdir. Təkcə 1973-cü ildə Azərbaycan xalqının zəngin tarixini özündə yaşadan 11 abidə eyni zamanda bərpa olunaraq istifadəyə verilmişdir.

Bununla yanaşı, müxtəlif tarixi və arxeoloji ekspedisiyalar yaradılırdı ki, bu yolla da çoxəsrlik Azərbaycan tarixi nəinki sovet imperiyasının, eləcə də dünya mədəniyyət tarixinin ayrılmaz hissəsi kimi öyrənilməyi zəruri edirdi. Ekspedisiyaların əldə etdiyi nailiyyətlər tarixi keçmişimizi daha da qədimlərə aparmaqla yanaşı, etnik kimliyimizin də tədqiqi və öyrənilməsinə, köklü adət-ənənələrimizin dirçəldilməsinə imkan yaradırdı. Təkcə 1974-cü ildə Azərbaycanın müxtəlif rayonlarında eyni zamanda 9 arxeoloji ekspedisiya, 4 arxeoloji dəstə işləyirdi.

Ulu öndər Heydər Əliyevin tarixi Azərbaycan ərazisi olan Qəbələ şəhərinin RLS tikintisi bəhanəsi ilə dağıdılmasının qarşısını qətiyyətlə aldığını o dövrün tarixçi alimləri çox yaxşı xatırlayırlar. Xatırladaq ki, bu plan Qəbələ RLS layihə institutlarının birində işləyən milliyyətcə erməni qadın tərəfindən layihələndirilmişdi.

1981-ci ilin oktyabr ayında Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti "Azərbaycan SSR-də şəhərsalma, arxitektura və arxeologiya abidələrinin mühafizəsini, bərpasını və onlardan istifadə olunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qəbul etdiyi Qərarla Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında Qarabağlar türbəsinin mühafizəsi və bərpası təmin edilmişdir. Ordubad şəhərinin qoruq şəhər elan edilməsi də məhz bu illərin ən cəsarətli qərarlarından idi. Bununla yanaşı, 1981-ci ildə Azərbaycanda 47 abidə üzərində eyni zamanda bərpa işləri aparılmışdır.

Azərbaycan KP MK Bürosunun 1981-1982-ci illərdə keçirilmiş iclaslarında qəbul olunan qərarlarla Azərbaycanın bütün rayonlarında tarix-diyarşünaslıq muzeyləri yaradılmağa başlanmışdır.

Xalqımızın böyük oğlu Heydər Əliyevin tarix qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan xalqının tarixi taleyində və dövlətçilik tariximizdə mühüm rolu olan şəxsiyyətlərə ucaltdığı abidələrdir. Bununla da, ulu öndər Azərbaycan torpağında azərbaycanlı görkəmli şəxsiyyətlərə abidə qoymaqla xalqında dövlətçilik, dövlət adamlarına rəğbət və hörmət hissini gücləndirirdi. Məhz bu illərdə müxtəlif tarixi şəxsiyyətlərimiz haqqında qəhrəmanlıq filmləri çəkilərək ("Babək", "Nəsimi", "Uzaq sahillərdə", "Dədə Qorqud" və sair) Azərbaycan tamaşaçısına təqdim edilmişdir.

Azərbaycan Respublikası ikinci dəfə öz dövlət müstəqilliyini əldə etdikdən sonra ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı hər bir sahədə olduğu kimi, milli tariximizin yenidən canlandırılmasına da öz töhfəsini vermişdir. Ulu öndər hakimiyyətinin ilk illərindən tarixçi alimlərlə keçirdiyi görüşlər zamanı çoxcildlik "Azərbaycan tarixi", "Azərbaycan şəhərlərinin tarixi", "Azərbaycan xalqının hərb tarixi", habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini əks etdirən fundamental əsərlərin yazılması zərurətini dönə-dönə xatırladırdı. Ümummilli liderin tarix elminin bütün problemləri ilə yaxından maraqlanması və bu sahəyə yaxşı bələdçiliyi sayəsində tariximizin müəyyən dövrləri ilə bağlı olan qaranlıq məsələlərə aydınlıq gətirilmişdir. Sovet dövrü Azərbaycan tarixinin, ümumiyyətlə, 1920-1990-cı illər tarixinin inkar edilməsinə qarşı çıxan ümummilli lider deyirdi: ***"Bəzi yeni siyasətçilər deyəndə ki, Nəriman Nərimanovdan başlanan və indiyə qədər, bizə qədər olan dövr tarix deyildir, mən dəhşətə gəldim. Belə ədalətsizliyə yol vermək olmaz. Bunu etmək istəyənlər tarixinə xor baxan, tarixinə düşmən çıxan adamlardır".***

Müstəqillik illərində ümummilli liderimizin tarixçilər qarşısında müəyyənləşdirdiyi ən mühüm vəzifələrdən biri də Azərbaycan tarixinin ayrılmaz parçası olan Naxçıvan tarixinin hərtərəfli araşdırılması olmuşdur. Naxçıvanın müasir elmi yanaşma baxımından öyrənilməsi vacibliyini vurğulayan ümummilli lider Heydər Əliyev deyirdi: ***"Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Bizim əsas məqsədimiz Naxçıvanın tarixini hərtərəfli öyrənmək, tədqiq etmək, onları elmi və populyar kitablarda dərc etmək, təbliğat materiallarında istifadə etməkdir".***

Naxçıvan tarixşünaslığının inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər sayəsində Naxçıvanda tarix elminin bütün sahələri üzrə yeni tədqiqat əsərləri meydana gəlmiş, Naxçıvan tarixinin ən aktual problemləri elmi surətdə öz həllini tapmışdır.

"Uluslararası qaynaqlarda Naxçıvan" mövzusunda simpozium keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 24 mart 1996-cı il tarixli Sərəncamı və simpoziumda səslənən tezislər ümummilli lider Heydər Əliyevin ideyalarına əsaslanmaqla gələcək tarixi planların müəyyənləşdirilməsinə şərait yaratmışdır.

Dünya sivilizasiyasına dəyərli töhfələr verən Naxçıvan ərazisi qədim və orta əsr abidələri ilə zəngin olan tarixi diyardır. Tarixi materiallarda qədim İpək Yolu üzərində ən əhəmiyyətli məntəqə kimi qiymətləndirilən Naxçıvan ərazisindən keçən beynəlxalq karvan yolları üzərində inşa edilən karvansaralar, xanəgahlar, məscidlər, ovdanlar, gözətçi məntəqələri, körpülər, sadəcə, yerli əhəmiyyətli deyil, eyni zamanda beynəlxalq əhəmiyyətli abidələr kimi inşa olunaraq istifadəyə verilmişdir. Buradakı Yaxın Şərqin ən qədim yaşayış və mədəniyyət abidələri, xatirə abidələri, türbələr, müdafiə qalaları Naxçıvanın maddi-tarixi irsinin ən unikal nümunələridir. Bu möhtəşəm tarixi möhürlərin mühafizə və bərpa olunmasında "Naxçıvan Muxtar Respublikasında tarixi abidələrin bərpası fondunun yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 dekabr 1999-cu il tarixli Sərəncamının ciddi tarixi əhəmiyyəti vardır. Qısa müddət ərzində günümüzədək tam, yaxud yarımdağılmış vəziyyətdə çatan abidələrin bərpa olunması Naxçıvan tarixinin müxtəlif dövrlərinin yenidən tədqiqi və öyrənilməsi baxımından yüksək dəyərə malikdir.

"Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 26 aprel 2001-ci il tarixli Sərəncamının işığında meydana gələn yeni tədqiqat əsərləri, yüksək səviyyədə təşkil olunmuş beynəlxalq ekspedisiyanın nəticələri bir daha sübut etdi ki, Gəmiqaya abidəsi xalqımızın milli, ideoloji, mifoloji təfəkkürünün məhsulu olan çox qiymətli tarixi abidədir.

Ali Məclis Sədrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqındakı sərəncamı bu sahədə ciddi və dəqiq araşdırmaları təmin etmişdir. Naxçıvan abidələri sistemli şəkildə öyrənilmiş və təbliğ olunmuş, Naxçıvan Abidələri Ensiklopediyası nəfis şəkildə nəşr olunaraq ictimaiyyətə təqdim edilmişdir.

"Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsi haqqında" 10 fevral 2009-cu il tarixli Sərəncamın nəticəsində Naxçıvanda keçirilən Beynəlxalq Simpoziumda səslənən fikirlər belə deməyə əsas verir ki, Naxçıvan, həqiqətən, ilkin sivilizasiya mərkəzlərindən biridir və özündə dünya mədəni irsinin ən sanballı nümunələrini yaşatmaqdadır.

İlkin yaşayış və şəhər mədəniyyətinin inkişaf etdiyi yer kimi Naxçıvan tarixinin öyrənilməsi, tədqiq və təbliğ olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsi haqqında" imzaladığı 7 iyun 2011-ci il tarixli Sərəncam Naxçıvanın ilkin şəhər mədəniyyətinin yarandığı ərazi kimi tədqiqi və öyrənilməsi baxımından ciddi tarixi əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə 6 avqust 2012-ci il tarixli Sərəncamı, əslində, 1996-cı ildə başlanan tarixi tədqiqatların sanballı yekunu kimi qiymətləndirilməlidir.

**Ümumilikdə isə bir daha qeyd etmək lazımdır ki, Azərbaycan tarixinin və onun vacib bir hissəsi olan Naxçıvan tarixinin fundamental tədqiqi istiqamətində atılan bütün addımlar ümummilli lider Heydər Əliyevin müdrik fikirlərinə və ideyalarına əsaslanmaqdadır. Bu isə ulu öndər Heydər Əliyevi təkcə tariximizin obyektiv, elmi əsaslarla öyrənilməsinin ideya müəllifinə çevirməyib, həm də onun özünü Azərbaycanın çoxminillik tarixinin özü qədər əbədiləşdirib. Başqa sözlə desək, Azərbaycan tarixini unudulmaqdan qoruyan Heydər Əliyevi Azərbaycan tarixi heç vaxt unutmayacaqdır. Çünki onun tariximizdə və taleyimizdə olan izləri əbədidir.**

**Elbrus İSAYEV**
*Naxçıvan Özəl Universitetinin Humanitar elmlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent*

# "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi

Naxçıvan Tibb Kollecində "Heydər Əliyev lektoriyası"nın ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş növbəti məşğələsi keçirilmişdir. Məşğələni giriş sözü ilə kollecin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva açaraq bildirmişdir ki, ulu öndərimiz Heydər Əliyev bütün fəaliyyəti boyu Azərbaycan dövlətçiliyinə və Azərbaycançılığa xidmət etmiş, Azərbaycançılıq ideologiyasını milli ideologiya səviyyəsinə qaldırmış, onu təlimə çevirmiş və Azərbaycanı milli müstəqilliyə qovuşdurmuşdur.

Məşğələdə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın banisidir" mövzusunda məruzəsi dinlənilmişdir. Qeyd olunmuşdur ki, müasir Azərbaycanın bugünkü sosial-iqtisadi inkişafının əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərimiz ötən əsrin 70-80-ci illərində sovet dövlətinin iqtisadi potensialından Azərbaycanda iqtisadiyyatın və mədəniyyətin inkişafı üçün bacarıqla istifadə etmişdir. Beləliklə, Azərbaycan xalqının rifahının yüksəldilməsi təmin olunmuş və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir.

Bildirilmişdir ki, görkəmli dövlət xadimi Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə Sovet İttifaqının tərkibində müstəqil Azərbaycanın əsaslarını qoymuş, milli ruhun, milli mənəviyyatın vətəndaşlarımızın məfkurəsinə çevrilməsinə nail olmuşdur. Bunun nəticəsi idi ki, Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edə bilmişdir. O dövrdə hakimiyyətdə olan adamların səriştəsizliyi nəticəsində Azərbaycan dövlət müstəqilliyini itirmək, ölkəmiz dağılmaq təhlükəsi ilə üz-üzə qalmışdı.



1993-cü ildə xalqın təkidli tələbi ilə ulu öndərin yenidən siyasi hakimiyyətə qayıdışı tarixə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Ümummilli liderimiz Azərbaycanın müstəqil dövlət kimi əbədi varlığını təmin etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi sabitliyi təmin etməklə, hüquqi dövlət quruculuğu istiqamətində mühüm ardıcıl tədbirlər həyata keçirməklə müstəqilliyi qorumağın möhtəşəm nümunəsini yaratmışdır. Ulu öndərimizin yolunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev Azərbaycanı sürətli inkişaf yoluna çıxarmış, dövlət müstəqilliyimizi daha da möhkəmlətmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da ulu öndərin uzaqgörən siyasəti bu gün uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında 2013-cü ilin "Heydər Əliyev ili" elan olunması, bu istiqamətdə yüksək səviyyəli tədbirlərin reallaşdırılması dahi rəhbərə böyük sevgi və məhəbbətin ifadəsidir.

Sonda məşğələ iştirakçıları ulu öndərin hər birimiz üçün örnək olan həyat və fəaliyyətindən bəhs edən sənədli filmə baxmışlar.

**Xəbərlər şöbəsi**

# Bura ulu öndərimizin görmək istədiyi Naxçıvandır



***Xəbər verdiyimiz kimi, dekabrın 6-da Heydər Əliyev Muzeyində yazıçı-publisist, Milli Məclisin deputatı Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyinin "Ömrün Naxçıvan aşırımları" adlanan V cildinin təqdimat mərasimi keçirilib. Təqdimat mərasimindən sonra müəllif "Şərq qapısı" qəzetinə müsahibə verib.***

*– Elmira xanım, bu gün sizin kitabınızın Naxçıvanda – ümummilli lider Heydər Əliyevin dünyaya göz açdığı torpaqda təqdimatı oldu. Hansı hissləri keçirirsiniz?*

– Bunlar çox ülvi hisslərdir. Hər dəfə Naxçıvana gələndə mən Naxçıvanı ümummilli lider Heydər Əliyevlə birinci görüşümüzü xatırlayıram və kövrəlirəm. 20 il keçib. Amma bu 20 il ərzində baş verən hadisələrə diqqət yetirdikdə adama elə gəlir ki, böyük bir dövr keçib, böyük bir epoxa keçib. Mən ulu öndər Heydər Əliyev haqqında yazmağa o vaxtdan başladım. Artıq 20 ildir ki, mən bu işi böyük fəxrlə davam etdirirəm. Mən fəxr edirəm ki, hələ Heydər Əliyevin sağlığında onun haqqında yazılan ilk dedektiv əsər olan "Naşirin qətli" əsərinin iki müəllifindən biriyəm. Sonralar da müxtəlif məqalələr və kitablar yazdım. Və ən nəhayətində, bu 7 cildlik roman-tədqiqat.

Ümummilli liderimizin xeyir-duası ilə mən bu roman üzərində işlədim. Amma işlədiyim dövrlər arasında xüsusi bir məsuliyyət tələb edən dövr var idi. Bu, dahi rəhbər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü idi.

Çünki mən bilirdim ki, həm ulu öndər Heydər Əliyev üçün, həm də bütün Azərbaycan üçün bu ən dramatik, ən çətin, ən ağır, eyni zamanda ən şərəfli bir dövrdür. Ulu öndər Heydər Əliyev həmişə bu dövrlə fəxr edirdi. Mənim yaddaşımdadır; Prezident seçildikdən sonra ulu öndər Naxçıvana hər səfərində o illəri xatırlayırdı. "Siz məni qoruyub saxladınız"– ümummilli liderin naxçıvanlılara müraciət edərkən dediyi bu cümlə, yəqin ki, Naxçıvan insanının yaxşı yadındadır. Bu kitab da naxçıvanlılara çox böyük bir sevgi ilə yazılan kitabdır.

Ümummilli liderimiz Heydər Əliyevin adını və dəyərlərini özündə yaşadan bu tarixi məkanda – Heydər Əliyev Muzeyində ulu öndərimizin o illərdə ən yaxın ideya silahdaşlarından biri olmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü, yüksək diqqət və qayğısı ilə bu təqdimat mərasimi keçirildi.

Mən çox istərdim ki, xüsusilə bizim cavanlarımız bu kitabı oxusunlar. Çünki bu kitabda çox böyük tarixi həqiqətlər var. Bu kitabda 3 illik qısa, amma böyük tarixi hadisələrlə zəngin bir dövr əks olunub. SSRİ-nin dağılması, Azərbaycanda hakimiyyət qarışıqlığı, ümummilli lider Heydər Əliyevin Sovet İttifaqının dağılmasına münasibəti, ölkədə baş verən qiyam və separatçı hərəkatlar, digər bütün hadisələr təfərrüatı ilə burada əksini tapıb.

O dövrün həqiqətlərini az adamlar bilir. Bilirsiniz, indi miflər yaranıb. Hətta bəziləri indi çıxıb deyirlər ki, biz o vaxtı belə vuruşurduq, belə mübarizə aparırdıq. Əslində, axı belə deyil. Gənc nəsil həqiqəti az bildiyi üçün, tarixi dövrün şahidi olmadığı üçün bunlara inana bilər. Ona görə belə kitablar çox lazımdır ki, həqiqətlər insanlara məlum olsun. Gənclər həqiqəti bilsinlər, faktları bilsinlər. Bəzən görürsən ki, o zaman ümummilli liderin yanında olmayanlar, ulu öndər Heydər Əliyevlə birgə Azərbaycanın dövlətçiliyinin qorunması uğrunda bircə addım da atmayanlar indi bəzən çıxıb deyirlər ki, mən belə qəhrəmanlıq göstərmişəm və sair. Bax bu kitab bütün o cür cəfəngiyatı dağıdır.

Ümummilli liderimiz Heydər Əliyev həmişə bizə deyirdi: "Həqiqəti yazın!" O, bizə həqiqəti yazmağı tövsiyə edirdi. Həqiqət isə ondan ibarətdir ki, o vaxt ulu öndər Heydər Əliyevi qanı və canı bahasına qoruyan insanlar olub. Həqiqəti həqiqət kimi yazmaq lazımdır. Həqiqəti görmək lazımdır. Amma bəzi adamlar həqiqəti görmək istəmirlər. Həmişə müstəqil jurnalistikada çalışan bir insan kimi həqiqəti yazmağı üstün tutmuşam və ümummilli lider Heydər Əliyevin bizə – jurnalistlərə tövsiyələrini əsas götürmüşəm.

*– Siz təqdimat mərasimində Naxçıvanın dünəni və bu günündən danışdınız. O zamankı ağır vəziyyəti və bu günün reallığını çox gözəl ifadələrlə təsvir etdiniz. Siz o zaman bir mətbuat nümayəndəsi kimi ümummilli liderlə ünsiyyətdə olmusunuz və yəqin ki, bu mövzuda fikirlərini eşitmisiniz. İndi ümummilli liderin sizə tövsiyə etdiyi həqiqət meyarına əsaslanaraq deyin: Naxçıvan ulu öndər Heydər Əliyevin görmək istədiyi Naxçıvandırmı?*

– Bəli, əlbəttə ki, bu, ümummilli lider Heydər Əliyevin görmək istədiyi Naxçıvandır. Biz indi Bakıda Naxçıvan haqqında eşidirik və yaxud gəlib buradakı inkişafın şahidi oluruq. Burada iqtisadi inkişaf yüksək sürətlə gedir, istehsal genişlənir, hətta Naxçıvan avtomobil istehsal edir. O zaman isə bunu heç xəyal etmək belə olmazdı. Naxçıvana gəlirsən, burdan getdikdən qısa müddət sonra yenidən Naxçıvana qayıdanda görürsən ki, şəhər necə sürətlə dəyişir, necə sürətlə inkişaf edir.

Naxçıvanın bu inkişafının bir səbəbi var. Bu, birbaşa ümummilli lider Heydər Əliyevin siyasi ideallarını, arzularını reallaşdırmağı qarşıya məqsəd qoyan, onun dövlətçilik yolunu yaxşı bilən rəhbərin iradəsinin nəticəsidir. Elə buna görə də ümummilli lider Heydər Əliyev əbədiyaşar liderdir. Onun yolunu cənab Prezident İlham Əliyev uğurla davam etdirir, yaşadır, Naxçıvan Muxtar Respublikasında isə bu işi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri uğurla həyata keçirir.

Bunu tək mən demirəm. Bunu tədqiqatçılar və sosioloji mərkəzlər deyir. Bizim inkişafımıza dünya qibtə edir. Qibtə etməklə yanaşı, bizim inkişafımıza zərbə vurmaq istəyənlər də çoxdur. Biz bunu da başa düşməliyik, bunu da bilməliyik. Ona görə biz bax bu sabitliyi göz bəbəyi kimi qorumalıyıq. Biz bilirik, nədir qeyri-sabitlik. Azərbaycan bunu görüb, Naxçıvan bunu görüb. Biz qüdrətli olmalıyıq. Azərbaycan daha qüdrətli dövlətə çevrildikcə bütün problemlərimiz bizim xeyrimizə həllini tapır.

***– Maraqlı müsahibə üçün çox sağ olun!***

**Müsahibəni hazırladı:**
**Elnur KƏLBİZADƏ**

# Naxçıvanda ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilmişdir

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Mərkəzi Neftçilər Xəstəxanası Ürək-Damar Xəstəlikləri Mərkəzi və Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası ölkəmizdə ənənəvi hal alan növbəti xeyriyyə aksiyasını Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində keçirir. Dekabrın 7-dən başlanan aksiya çərçivəsində artıq 16 açıq ürək, 8 angioqrafiya əməliyyatları aparılmış, 300 nəfər müayinədən keçirilmişdir. Əməliyyat və müayinələrdə yerli həkimlər də yaxından iştirak edirlər. Onların iştirakı ilə ürək əməliyyatına ehtiyacı olan xəstələr əvvəlcədən müəyyən olunaraq növbəyə alınmışlar. Həkim briqadasının dekabrın 14-dək davam edəcək fəaliyyəti dövründə müayinə ediləcək pasiyentlərdə müşahidə olunan gizli ürək xəstəlikləri və onların risk amilləri araşdırılacaq, ürək xəstəliyi aşkarlanan xəstələrin sonrakı müayinə və müalicələri diqqət mərkəzində saxlanılacaqdır.

Bu aksiya çərçivəsində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Serebrovaskulyar xəstəliklərin müayinə və müalicəsinə müasir baxış" mövzusunda Beynəlxalq Elmi-Praktik Konfrans keçirilmişdir. Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov çıxış edərək Azərbaycan dövlətçiliyinin qorunub saxlanılmasında tarix və xalq qarşısında misilsiz xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin həm də səhiyyənin inkişafına mühüm töhfələr verdiyini vurğulamışdır. Qeyd edilmişdir ki, ulu öndərin Azərbaycana rəhbərliyinin hər iki dövründə ölkəmizdə səhiyyənin uğurları, maddi-texniki bazası, kadr potensialı, peşəkarlıq səviyyəsi başqa dövlətlərdən xeyli üstün olmuşdur. Ulu öndər 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra səhiyyənin hərtərəfli inkişafı üçün dövlət səviyyəsində bütün mümkün tədbirlər həyata keçirilmişdir.

Sonra konfransda Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının sədri, Ürək-Damar Xəstəlikləri Mərkəzinin müdiri Rəşad Mahmudovun "Koronar və Serebral arteriyaların kombinə aterosklerotik zədələnmələrində müalicə taktikası", Türkiyə Respublikasından invaziv radioloq, professor Əhməd Məmişin "Serebrovaskulyar patologiyaların diaqnostika və müalicəsində invaziv radiologiyanın rolu", İzmir şəhərindəki Ege Universitetinin professoru Əmrə Qumralın "Serebrovaskulyar xəstəliklər: insultun medikamentoz müalicəsi", İzmir Şəhər Xəstəxanasının professoru Suat Buketin "Yuxu arteriyalarının xəstəliklərində cərrahi müalicənin rolu", Daşkənd Tibb Akademiyası Damar cərrahiyyəsi şöbəsinin müdiri Abdulrəsul Yulbarisovun "Özbəkistanda damar cərrahiyyəsində tətbiq olunan müasir üsullar" mövzularında məruzələri dinlənilmiş, dünya səhiyyəsində bu sahədə əldə edilən son nailiyyətlər barədə məlumatlar verilmişdir. Sonda məruzələr ətrafında müzakirələr aparılmış, suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# "Xəmsə" milli intellektual oyununun final mərhələsi

***"Duzdağ" otelində Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, həmçinin Naxçıvan Muxtar Respublikası Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin təşkilatçılığı ilə "Xəmsə" milli intellektual oyununun yeniyetmə və gənclər arasında III Azərbaycan çempionatının final mərhələsi keçirilmişdir.***



Yeniyetmə və gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, eləcə də onların asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini Məcid Seyidov açmış, ölkədə gənclərə göstərilən dövlət qayğısından danışmışdır.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin sektor müdiri Kənan Kərimov çıxış edərək belə tədbirlərin şagirdlərin intellektual səviyyələrinin yüksəldilməsindəki rolundan bəhs etmişdir.

Sonra püşkatma olmuşdur.

Gərgin keçən bilik yarışında "Xəmsə" intellektual oyununun final mərhələsində ölkəmizin 25 regionundan 32 komanda olmaqla, 220 nəfər yeniyetmə və gənc iştirak etmişdir. Komandaların 3-ü muxtar respublikanı təmsil etmişdir.

Qalib gəlmiş komandaların üzvləri Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən diplom və medallarla təltif olunmuşlar.

**✍ Türkan HÜSEYNLİ**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 1126